

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 222 (21.632)

*24 noyabr 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Xose Perurena Lopezi və Avropa Kanoe Federasiyasının prezidenti Albert Vudsu qəbul edib.

Beynəlxalq Kanoe Federasiyasının prezidenti Xose Perurena Lopez rəhbərlik etdiyi qurumun Konqresinin Azərbaycanda keçirilməsinin önəmini qeyd edərək bu tədbirə 90-a yaxın ölkədən nümayəndələrin qatılacağını bildirib. Xose Perurena Lopez yaradılan şəraitin və bütün idman obyektlərinin yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayıb. Qonaq, ümumiyyətlə, Azərbaycanda beynəlxalq tədbirlərin, o cümlədən "Formula-1" yarışının çox yaxşı təşkilinin dünyada maraqla izlənildiyini deyib.

Prezident İlham Əliyev ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsində kifayət qədər təcrübəyə malik olduğunu qeyd edib. Dövlətimizin başçısı bu il Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Yay Olimpiya Oyunlarında idmançılarımızın kanoe idman növündə ilk dəfə medallar qazandıqlarını məmnunluqla qeyd edib və bildirib ki, bu nailiyyət gələcəkdə idmanın bu növünə marağın artmasına gətirib çıxaracaq.

Görüşdə Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa böyük töhfə verdiyi qeyd olunub.



## Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: inkişaf meyilləri və problemlər



***"Naxçıvan" Universitetində bu mövzuda elmi-praktik konfrans keçirilib.***

Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, müasir dünyada cərəyan edən iqtisadi məsələlərin öyrənilməsi, yeni iqtisadi şəraitdə iqtisadi fəallığın daha da artırılması bu sahə ilə məşğul olanların qarşısında duran əsas məsələlərdəndir. Rektor vurğulayıb ki, ölkəmizin və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının əldə etdiyi iqtisadi inkişaf səviyyəsində istər sahibkarların, istərsə də iqtisadçı kadrların qarşısında mühüm vəzifələr dayanır.

"Aqrar sahədə yeniləşmə və iqtisadi inkişaf" mövzusunda çıxış edən Universitetin İqtisadiyyat kafedrasının müdiri, dosent Dilsuz Qasımov bildirib ki, kənd təsərrüfatının inkişafı ölkəmizdə və muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi həmişə diqqətdə saxlanılır. O qeyd edib ki, hələ ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə Azərbaycanın sahib olduğu münbit torpaq, su və iqlim ehtiyatlarından səmərəli istifadə edilməklə qısa müddətdə ölkəmiz keçmiş ittifaq səviyyəsində ön sıralara çıxarılıb. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu və müstəqil ölkəmizə rəhbərlik etdiyi dövrdə aqrar sahənin inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində qısa müddətdə Azərbaycanda ərzaq problemi uğurla həll edilib. Müstəqilliyimizin ilk illərində Naxçıvanda aparılmış uğurlu aqrar islahatlar, ölkəmizdə aqrar sahənin inkişafına yönəldilmiş stimullaşdırıcı tədbirlər, torpaq mülkiyyətçilərinin və fermerlərin problemlərinin həll edilməsi hesabına aqrar sahədə yeniləşmə və inkişafa nail olunub.

"Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Mircavid Tağızadə qeyd edib ki, yerli potensialdan səmərəli istifadəyə əsaslanmaqla iqtisadiyyatın şaxələndirilməsi, regionun əmək və təbii ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb olunması, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilir. Bildirilib ki, cari ilin 10 ayının nəticələrinə görə, Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsulun həcmi 1 milyard 999 milyon manatdan, onun bir nəfərə düşən həcmi isə 4470 manatdan artıq olub. Muxtar respublikada sahibkarlığın inkişafına verilən diqqətin nəticəsidir ki, hazırda regionda 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Vurğulanıb ki, hazırda naxçıvanlı sahibkarlar ağır sənayedə, kənd təsərrüfatında, turizm və emal sektorunda uğurlu layihələr həyata keçirirlər.

"Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsinin dekanı, dosent Ceyhun Mahmudov "Regional inkişaf və iqtisadi təhlükəsizliyin təmin edilməsi problemləri" mövzusunda çıxış edib.

İqtisadiyyat fakültəsinin I kurs tələbəsi Aydan Nabatovanın "Ərzaq təhlükəsizliyi" mövzusundakı çıxışı da konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

***AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclasını giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.***

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası keçirilib



Tədbirdə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru, dosent İsmayıl Məmmədovun "Naxçıvan Muxtar Respublikası şəraitində kənd təsərrüfatı heyvanları və quşlarının sarcosporidiozu" mövzusunda məruzəsi dinlənilib. Məruzəçi bildirib ki, muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlər daxili bazarın keyfiyyətli yerli ərzaq məhsulları ilə təminatında mühüm rol oynayır.

Sonra AMEA Naxçıvan Bölməsində 2016-cı ildə görülmüş elmi-tədqiqat işlərinin yekunlarına dair hesabatlarla bağlı bölmənin Elmi təşkilat şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırovun çıxışı dinlənilib.

İclasda AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Biokimyəvi tədqiqatlar laboratoriyasında aparılan elmi-tədqiqat işlərinin vəziyyəti haqqında laboratoriya rəhbəri, biologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Ələkbərov məlumat verib. Bildirib ki, laboratoriyada bir iş 4 mərhələdə yerinə yetirilib. Tədqiqat ilində Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış bəzi dərman bitkilərinin biomorfoloji və tibbi xüsusiyyətləri, dərman kimi istifadəsi təhlil edilməklə, inkişaf dinamikası, yayılması, fitokimyəvi tərkibi, elmi və xalq təbabətində istifadə imkanları öyrənilib. Əməkdaşlar tərəfindən il ərzində aparılan tədqiqatlarla bağlı 10 elmi və 1 qəzet məqaləsi nəşr edilib, 9 elmi məqalə isə nəşrə təqdim olunub.

İclasda AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun böyük elmi işçiləri, aqrar elmlər üzrə fəlsəfə doktoru Günel Seyidzadənin və biologiya üzrə fəlsəfə doktoru Namiq Abbasovun 2016-cı ilə aid elmi hesabatları dinlənilib.

Müzakirəyə çıxarılan digər məsələ dissertasiya mövzularının adında dəyişiklik edilməsi haqqında olub. Məsələ ilə bağlı bölmənin Təhsil və kadrlar şöbəsinin rəisi Fillurə Sadıqova məlumat verib.

İclasın sonunda təşkilati məsələlərə baxılıb.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Təhsil ocağında son tamamlama işləri görülür

***Naxçıvan Muxtar Respublikasında aparılan tikinti-quruculuq tədbirləri sırasında yeni məktəb binalarının tikilməsi və ya yenidən qurulması mühüm yer tutur.***

Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, hər il onlarla yeni təhsil ocağı istifadəyə verilir, onların maddi-texniki bazası yenilənir. Belə təhsil müəssisələrindən biri də Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdir. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən təhsil ocağının binası əsaslı şəkildə yenidən qurulub, binaya bir korpus əlavə olunub. Yenidənqurma işləri zamanı zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binanın fasadı milli memarlıq üslubunda işlənib, dam örtüyü yenilənib, daxildə müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb. Obyektdən verilən məlumata görə, zirzəmi hissədə qazanxana, yeməkxana, kitabxana, hərbi kabinə, digər mərtəbələrdə isə 30 sinif otağı, elektron lövhəli siniflər, kompüter otaqları, şahmat sinfi və müxtəlif laboratoriyalar yerləşir. Artıq burada işlər yekunlaşıb, binanın arxa hissəsində isə abadlıq işləri davam etdirilir. Yaradılmış şərait məktəbdə oxuyacaq şagirdlərin sayının 540-dək çatdırılmasına imkan verəcək.



***Babək Rayon İcra Hakimiyyətinin binasında əsaslı təmir və yenidənqurma işləri aparılır. Bu quruculuq tədbirini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin kollektivi həyata keçirir.***

## Babək Rayon İcra Hakimiyyətinin binası yenidən qurulur



İdarənin rəisi Rəvayət İmanovdan aldığımız məlumata görə, cari ilin iyul ayından yenidənqurma işlərinə başlanılıb. Ötən aylar ərzində binanın zirzəmisi və üç mərtəbəsi yenidən qurulub, daha bir mərtəbə tikilib. Obyektdə, demək olar ki, əsas işlər görülüb. Belə ki, binanın daxilində aparılan yenidənqurma tədbirləri başa çatdırılıb, dam örtüyü vurulub, kommunikasiya xətləri yenilənib, daxili və xarici suvaq işləri tamamlanıb, qapı-pəncərələr salınıb.

Hazırda isə binanın daxilində boya işləri aparılır, həmçinin cilalanmış və cilalanmamış travertin çeşidlərindən, qara mərmərdən yaradılan kompozisiya çərçivəsində binanın girişində işlər davam etdirilir.

Binanın həyətyanı sahəsində yardımçı tikililər sökülərək yenidən qurulur, su xətləri çəkilir, yaşıllıq əraziləri səliqəsahmana salınır.

## Həyətyanı torpaq sahələrinin plana alınması davam etdirilir

Muxtar respublikada torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılır. Komitədən verilən məlumata görə, bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. 2015-ci ilin avqust ayından etibarən Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu tərəfindən Babək və Şərur rayonlarının yaşayış məntəqələrində həyətyanı torpaq sahələrinin plana alınmasına başlanılıb. Babək rayonunun Babək qəsəbə, Sirab, Qahab, Şıxmahmud, Xəlilli, Naxışnərgiz, Aşağı Uzunoba, Yuxarı Uzunoba, Vayxır, Xal-xal, Didivar, Nəzərabad, Güznüt, Çeşməbasar, Məzrə, Aşağı Buzqov və Payız kəndlərində, Şərur rayonunun Mahmudkənd, Vayxır, Tumaslı və Diyadin kəndlərində planaalma işləri başa çatdırılıb.

Ümumilikdə, 2015-ci ilin avqust ayından bu günədək muxtar respublikanın 22 yaşayış məntəqəsində 8445 həyətyanı torpaq sahəsi plana alınıb.

Hazırda Babək rayonunun Gülşənabad və Şərur rayonunun Yengicə kəndlərində planaalma işləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan dünən

# Tək əldən səs çıxmaz

*Vaxt var idi, doğma Naxçıvanımızın keçmişi ilə, onun qədim tarixi ilə fəxr etdiyimiz kimi, şəhərimizin gələcəyinə böyük ümidlərlə baxırdıq.*

Gəlin heç uzağa getməyək. Yaxın keçmişə, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə nəzər salaq və olub-keçənləri xatırlayaq.

Naxçıvan özünün inkişaf dövrünə qədəm qoymuş, quruculuq-abadlıq işləri geniş vüsət almış, sabahın üfüqlərinə inamla, böyük arzularla boylanırdı. O dövrdə mikrorayonlar salındı, neçə-neçə fabrik və zavodlar istifadəyə verildi, neçə-neçə maarif, mədəniyyət ocaqları öz qapılarını xalqın üzünə açdı. Bir sözlə, tikinti, abadlıq, təmizlik işləri, necə deyərlər, qaynayıb coşurdu. “Naxçıvanı Azərbaycanın gözəl şəhərlərindən birinə çevirək” şüarı altında hər il iməciliklər keçirilir, küçə-bacalarda, xiyabanlarda, parklarda təmizlik işləri aparılır, yol kənarlarında tinglər əkilirdi. “Qızlar bulağı”, “Uşaq şəhərciyi”, “Mədəniyyət və istirahət parkı” və başqa istirahət yerləri hamının – uşaqların da, böyüklərin də ən sevimli və əyləncəli yerlərinə çevrilmişdi. “Uşaq şəhərciyi”ndəki qatar gəzintisi, “Venesiya” adlanan kanalda qayıqla gəzinti, müxtəlif karusellər körpələrin sevincinin üstünə sevinc gətirirdi. Elə ki axşam yaxınlaşırdı, bu yerlər adamla dolu olurdu. Təəssüflər ki, son illərin ağrılı-acılı hadisələri, daxili sabitliyin pozulması, nizam-intizamın aşağı düşməsi və sair bu kimi hallar iqtisadiyyata olduğu kimi, mənəviyyatımıza da, mədəniyyətimizə də böyük zərbələr vurdu. Şəhərdə gedən dağıntılar, parkların, xiyabanların, küçələrin bərbad vəziyyətə düşməsi, yaşıllıqların kor-koranə məhv edilib yerində komission mağazalarının və köşklərin yan-yana düzülməsinə, görəsən, kim cavabdehlik daşıyır? Əlbəttə, özümüz. Özümüz deyəndə ki, camaat, şəhərin aid təşkilatları və onların rəhbərləri.

Elə bilməyin ki, biz ticarətin, alış-verişin, komission mağazaların əleyhinəyik. Yox, amma hər addımı atmamışdan əvvəl gərək götür-qoy edəsən. Atalar demişkən, yüz ölçüb, bir biçəsən.

Əgər şəhərdaxili yollarda, küçələrdə hərə dəmir bir köşk qoyub alver edirsə, ətrafa yığın-yığın meyvə qabığı, kağız-kuğuz, xarab olmuş tərəvəz kolları, kartof, kələm qalıqları atılırsa, onda hansı təmizlikdən danışmalıyıq? Əgər yollarda, məhəllələrdə nəzarətsiz ət kəsilirsə, mal-heyvanın qanı, zir-zibili ətrafa dağıdılırsa, kimi günahkar bilməliyik? Əgər yarmarkalarda, bazarlarda, yollarda kababın iyi ötüb keçənləri, qocaları, xəstələri, uşaqları bihuş edirsə (özü də indiki bahalıq və qıtlıq dövründə), bunu kimin ayağına yazmaq lazımdır?

Lakin son günlər çoxlarının dilindən bu kəlmələr tez-tez eşidilir:

– Bax belə, muxtar respublikanın yeni rəhbərliyinin bu günlər həyata keçirdikləri tədbirlər ürəyimizcədir. Vallah-billah yollardan ötüb keçə bilmirdik. Adam uşaqdan da utanırdı. Yollara səpələnmiş köşklərin götürülməsinin tərəfdarıyıq. Yaxşı olar onlar ayrıca bir yerə cəmləşdirilsin və orada alqı-satqı işləri davam etdirilsin.

Həqiqətən, son illər şəhərimizin siması adama heç də xoş gəlmir. Naxçıvan bir neçə il bundan qabaqkı şəhərə bənzəmir. Küçə-bacalar, xiyabanlar toz-torpaq, zir-zibil içərisindədir. Çox yerdə antisanitariya vəziyyəti hökm sürür. Belə-belə işlər şəhərimizə gələn qonaqların, xarici nümayəndələrin qətiyyən xoşlarına gələ bilməz. Özünü bu elin, bu torpağın qeyrətli oğul və qızları adlandıranlar şəhərimizdəki indiki vəziyyətə, onun bu kökə düşməsinə gərək dözməsinlər. Gəlin elə günü sabahdan, yaxud şənbə və bazar günləri qollarımızı çırmayıb doğma Naxçıvanımızın təmizliyi, abadlığı, onun gözəlliyi uğrunda işə başlayaq. Elliklə küçələrə, xiyabanlara, yaşadığımız məhəllələrə çıxıb təmizlik işləri ilə məşğul olaq. Mənə elə gəlir ki, kənardan heç kəs gəlib bizim bu işlərimizi yönünə qoymayacaq, özümüzdən savayı.

Şəhərimiz evimizdir bizim. Evimizin təmizliyi mənəviyyatımızın saflığı, sağlamlığımızın rəhni deməkdir. Atalardan belə bir misal var: “Tək əldən səs çıxmaz”. Hamımız əl-ələ verib bu işləri görməliyik.

***“Şərq qapısı” qəzeti***
***10 yanvar 1996-cı il***







## və bu gün

# İnkişafın, müasirliyin, birliyin və həmrəyliyin Naxçıvan nümunəsi

***Ürək yanğısı ilə qələmə alınan bu məqaləni oxuyanda həmin dövrün Naxçıvanını bir daha xatırlayırıq. Məqalənin dərc olunduğu tarixə diqqət yetirdikdə isə onun yenilikçi düşüncənin ilk qığılcımlarının göründüyü günlərə təsadüf etdiyini, məhz bundan güc alaraq yazıldığını anlamaq çətin deyil. Yazıda Naxçıvan şəhərində, əslində isə həm də bütün muxtar respublikada mövcud olan ciddi problemlər əsaslandırılmış şəkildə ortaya qoyulmaqla bu vəziyyətdən çıxış yolunun yalnız el birliyində olduğu vurğulanıb. Bunun üçün nümunənin də mövcud olduğu qeyd edilib. Bu, dahi şəxsiyyət Heydər Əliyevin keçmiş sovet dövründə gördüyü işlər, həyata keçirdiyi tədbirlər idi.***

Bəli, biz yalnız Onun yolu ilə getməli, Onun ideyalarına söykənməli, Onun siyasi məktəbinin layiqli məzunlarının çağırışına səs verməli idik. Bu, dövrün tələbi olmaqla yanaşı, həm də cəmiyyətdən gələn ictimai sifariş idi. Lakin qaranlıqda yol qət etmək istəyənlərin yolgöstəriciyə ehtiyacı olduğu kimi, belə məqamlarda da mayak kimi parlayan ideyalara böyük ehtiyac var idi. Nəticəni isə yalnız yüzlərlə insanın həmin ideya ətrafında birləşməsi, mövcud vəziyyətin dəyişməsi üçün əl-ələ verməsi, birgə amal, birgə məqsəd naminə çalışması dəyişə bilərdi. Çünki, həqiqətən də, tək əldən heç vaxt səs çıxmaz. Çünki güc birlikdədir...

Qeyd etdiyim kimi, məqalədə ulu öndər Heydər Əliyevin keçmiş ittifaq dönəmində respublikamıza rəhbərlik etdiyi dövrə həsrətlə nəzər salınır və həmin dövrdə olub-keçənlər sanki bir əfsanə kimi xatırlanır. Məqalədə deyilir: “Həmin illərdə Naxçıvan özünün inkişaf dövrünə qədəm qoymuş, quruculuq-abadlıq işləri geniş vüsət almış, sabahın üfüqlərinə inamla, böyük arzularla boylanırdı. O dövrdə mikrorayonlar salındı, neçə-neçə fabrik və zavodlar istifadəyə verildi, neçə-neçə maarif, mədəniyyət ocaqları öz qapılarını xalqın üzünə açdı. Bir sözlə, tikinti, abadlıq, təmizlik işləri, necə deyərlər, qaynayıb coşurdu. “Naxçıvanı Azərbaycanın gözəl şəhərlərindən birinə çevirək” şüarı altında hər il iməciliklər keçirilir, küçə-bacalarda, xiyabanlarda, parklarda təmizlik işləri aparılır, yol kənarlarında tinglər əkilirdi”.

Bu sətirləri oxuyanda, düşünürsən ki, müəllif sanki bugünkü Naxçıvanı tərənnüm edir. Bu gün muxtar respublika və onun paytaxtı Naxçıvan şəhəri özünün inkişaf dövrünü yaşayır. 1970-80-ci illərdə olduğu kimi, sabahın üfüqlərinə inamla, böyük arzularla boylanır, tikinti, abadlıq, təmizlik işləri, necə deyərlər, qaynayıb coşur. İnamla deyə bilərik ki, bu gün Naxçıvan ölkəmizin və dünyanın ən gözəl şəhərləri sırasına daxil olub. Bu fikir bu gün şüarlarda deyil, həyatda öz təsdiqini tapıb. Bu gün hər il deyil, hər həftə Naxçıvan şəhəri ilə bərabər, bütün muxtar respublikada iməciliklər keçirilir, küçə və parklarda təmizlik işləri aparılır, yol kənarlarında, xüsusi ayrılmış sahələrdə tinglər əkilir.

Bu gün muxtar respublikamızda, o cümlədən Naxçıvan şəhərində həyata keçirilən genişmiqyaslı infrastruktur quruculuğu layihələri qədim diyarımızı cənnətməkana çevirib. Naxçıvan şəhərinin qədimliyi və klassik üslubu harmonik şəkildə müasir memarlıq nailiyyətləri ilə birləşib. Bütün bunlar Naxçıvanın regionun ən gözəl şəhərləri sırasında yerini daha da möhkəmləndirməsinə töhfə verir. Bu gün Naxçıvan şəhərində reallaşdırılan layihələr nəticəsində muxtar respublikanın paytaxtının müasir siması yaradılıb, şəhər sakinlərinin, bura gələn qonaqların istirahətinin yüksək səviyyədə təşkili üçün yeni məkanlar qurulub, mövcud olanlar isə müasir səviyyədə abadlaşdırılıb.

Naxçıvana gələn yüksək səviyyəli qonaqların, nüfuzlu alimlərin də qeyd etdiyi kimi, muxtar respublikanın paytaxtı qısa müddətdə əsaslı surətdə yenidən qurulub. Şəhərsalmada xüsusi diqqət yetirilən kərpic və şəbəkə elementləri burada Şərq memarlıq ənənələrini, şüşə və metal konstruksiyalardan istifadə isə Qərb inşaat texnologiyalarını üzvi vəhdətdə yaşatmağa xidmət edir. Müasir Naxçıvan Şərq mühitinin özünəməxsus aurasını və Qərbyönlü inkişafın əsas meyillərini cəm halda təcəssüm etdirir. Naxçıvan şəhərində əsaslı şəkildə bərpa edilmiş XIX əsrə məxsus Came məscidi, Zaviyə-mədrəsə binası, Naxçıvanqala, Xan sarayı, Möminə xatın, Yusif Küseyiroğlu və Nuh türbələri, İsmayılxan hamamı qədimlik ənənəsinin örnəkləridir. Görkəmli şair-dramaturq Hüseyn Cavidin şəbəkə ilə işlənmiş türbəsi də bu ənənələrdən bəhrələnərək ucaldılıb.

Bununla yanaşı, 1995-ci ildən 2016-cı il oktyabrın 1-dək Naxçıvan şəhərində tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş obyektlər bir Şərq şəhərindəki Qərb inşaat nümunələridir. Qeyd olunan dövr ərzində Naxçıvanda 67 təhsil obyekti inşa olunub və ya yenidən qurulub. Onlardan 22-si ümumtəhsil məktəbi, 11-i ali təhsil müəssisəsi (korpuslar daxil edilməklə), 3-ü elm ocağı, 11-i uşaq bağçası, 7-si musiqi məktəbi, 7-si məktəbdənkənar müəssisə, 6-sı isə peşə və orta ixtisas məktəbidir. Aparılan quruculuq işləri bununla yekunlaşmayıb. Naxçıvan şəhərində 30 səhiyyə, 66 mədəniyyət, 13 idman obyekti inşa olunub.

*Ardı 3-cü səhifədə*









Onu da qeyd etmək lazımdır ki, bu obyektlərin tikintilərinə və onların maddi-texniki bazasının formalaşdırılmasına xeyli vəsait sərf olunub. Çünki bu tikililər və orada fəaliyyət göstərən müəssisələr bu günümüz və gələcəyimiz üçün strateji əhəmiyyət daşıdığından onların maddi-texniki təminatı yüksək səviyyədə təşkil edilib. Bu gün Naxçıvanda nə iş görülürsə, bu, ən mükəmməl şəkildə icra olunur. Məsələn, bir təhsil və ya səhiyyə müəssisəsi inşa olunaraq istifadəyə verilirsə, buranın avadanlıqları da müasir tələblərə cavab verəcək şəkildə təmin edilir.

Naxçıvan şəhərinin bu səviyyəyə yüksəlməsində 2014-cü il yanvarın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" xüsusi rol oynayıb. Bu proqramın icrası nəticəsində inzibati binalar tikilib və təmir edilib, şəhərin istilik, su təchizatı və kanalizasiya sistemi yeniləşdirilib, elektrik enerjisi və qaz təchizatı yüksək səviyyədə təmin olunub, yol təsərrüfatı və nəqliyyat sahəsi müasir standartlara uyğunlaşdırılıb, yaşıllaşdırma və abadlıq işləri davam etdirilib, gənclər və idman, təhsil, səhiyyə, mədəniyyət sahələrinin maddi-texniki bazalarının daha da gücləndirilməsi, yaşayış sahələrinin tikintisi və təmiri istiqamətində kompleks işlər görülüb.

Naxçıvan şəhərinə daxil olan kənd və qəsəbələrdə də kompleks infrastruktur quruculuğu tədbirləri həyata keçirilib. Son olaraq bu il noyabrın 1-də Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində yeni içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib, Bulqanda kənd və xidmət mərkəzlərinin açılışı olub. Bu, günü-gündən böyüməkdə olan Naxçıvan şəhərinin daxilində gələcəkdə rayonlaşdırmanın aparılmasına və şəhər idarəçiliyinin çoxmərkəzli təşkilinə hesablanmış addımdır. İnzibati ərazi dairələri üzrə nümayəndəliklər üçün binaların, kənd mərkəzlərinin tikintisi yerli inzibati idarəçiliyin daha yaxşı təşkilinə, əhalinin qarşılaşdığı problemlərin operativ həllinə, inzibati orqanlarla əhali arasında ünsiyyətin mobilliyinə təkan verib.

"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, Naxçıvançay vadisində insanların istirahətinin səmərəli təşkili məqsədilə yeni Əyləncə və İstirahət Mərkəzi inşa edilib. Naxçıvan şəhərində bir uşaq istirahət mərkəzinin fəaliyyət göstərməsi şəhər sakinlərinin tələbatını tam ödəmirdi. Ona görə də muxtar respublikanın paytaxtında yeni Əyləncə və İstirahət Mərkəzinin yaradılmasına ehtiyac yaranmışdı. İki il bundan əvvəl istifadəyə verilən mərkəzin yerləşdiyi ərazi vaxtilə müxtəlif məqsədlər üçün istifadə edilib və sonradan çox yararsız vəziyyətə düşmüşdü. Lakin dövlətimizin diqqət və qayğısı nəticəsində bu ərazi artıq Naxçıvan şəhərinin ən abad yerlərindən birinə çevrilib.



Mərkəzdə müasir avadanlıqlar qurulub, təhlükəsizlik təmin edilib. Bu da uşaqların və böyüklərin istirahətlərinin, eləcə də asudə vaxtlarının səmərəli keçirilməsinə imkan verir. Uşaqların ən sevimli əyləncə məkanı hər axşam insanlarla dolub-daşır.

Son illər Naxçıvan şəhərinin ətrafında da yaradılan istirahət mərkəzləri sakinlərin və gələn qonaqların asudə vaxtının səmərəli təşkilinə imkan verir. 2014-cü il iyulun 7-də istifadəyə verilən Uzunoba Su Anbarında yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyi isə yay-istirahət zonası kimi şəhər sakinlərinin və gənclərin asudə vaxtının səmərəli keçirilməsinə, onların sağlamlıqlarının qorunmasına xidmət edir.

"Tək əldən səs çıxmaz" məqaləsinin müəllifinin ağrılı-acılı hadisələrdən, daxili sabitliyin pozulmasından, nizam-intizamın aşağı düşməsindən ürək yanğısı ilə yazması başadüşüləndir. Çünki bu, həmin dövrün reallıqları idi. Bu gün isə qarşımızda tamamilə başqa mənzərə canlanır. Bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda mövcud ictimai-siyasi sabitlik, asayişin qorunması, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, kriminogen durumun sabitliyi ötən müddətdə qazandığımız ən böyük nailiyyətlərdən biridir. Naxçıvan əhalisi mövcud vəziyyəti alqışlayır. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublika sakinləri bir çox təhlükələrlə üz-üzə qalıblar. Həmin vaxtlar bir tərəfdən ermənilərin müxtəlif yaşayış məntəqələrinə ardıcıl hücumları, torpaqlarımızın işğal edilməsi təhlükəsi insanları narahat edirdisə, digər tərəfdən Naxçıvan şəhərində, eləcə də rayon mərkəzlərində və kəndlərdə cinayətkarlığın baş alıb getməsi dəhşətli bir vəziyyətin yaranmasına səbəb olmuşdu. Bu gün isə muxtar respublika cinayətsiz region, paytaxt Naxçıvan şəhəri isə dünyanın ən təhlükəsiz şəhərlərindən biridir.

Muxtar respublikamızdakı yüksək nizam-intizamı isə təkcə biz deyil, Naxçıvana qonaq gələn hər kəs xüsusi vurğulayır. Naxçıvana gələn bütün həmkarlarımdan dəfələrlə eşitdiyim bu sözlər isə reallığı ifadə edir. Onlar deyirlər: "Təyyarədən Naxçıvana enəndə elə ilk anlardan hiss edirsən ki, muxtar respublikada ciddi nizam-intizam mövcuddur. Hər kəs öz işini lazımi səviyyədə, qaydalara, qanunlara uyğun görməyə çalışır. Heyranedici bu mənzərəni Naxçıvan Beynəlxalq Hava Limanının möhtəşəm binası, yüksək səviyyədə yaradılmış yol infrastrukturu, gözəlliyə qərq olmuş Naxçıvan şəhəri və muxtar respublikanın şəhərləşən, müasirləşən kəndləri tamamlayır. Burada vaxt insanın yox, insan vaxtın hakimidir".

Bəli, bugünkü Naxçıvan məhz belədir. Onu da xatırladım ki, bu il muxtar respublikamızda "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunub. Bu da təsadüfi deyil. Çünki bütün dövrlərdə inkişafın, yüksəlişin, uğurların başlıca səbəbi və aparıcı qüvvəsi hesab olunan nizam-intizam ölkədə, cəmiyyətdə, iş yerimizdə qaydalara, qanunlara şüurlu şəkildə əməl olunmasının vacibliyini ön plana çəkir. Nizam-intizam yüksək tələbkarlığın, prinsipiallığın, yorulmaz fəaliyyətin, əqidə bütövlüyünün, dərin sədaqətin və nəhayət, vətənpərvərliyin tamamlayıcı amili kimi daim diqqəti cəlb edir, rəğbət yaradır. Nizam-intizamın olmadığı diyarlarda, ölkələrdə xaos, anarxiya, özbaşınalıq kimi arzuolunmaz dağıdıcı meyillər yaranır, faciələrə yol açan hadisələr baş verir. Yəni nizam-intizam inkişafla yanaşı, həm də davamlı sabitliyin, əmin-amanlığın açarıdır. Məlumdur ki, sabitliyin olmadığı yerdə nailiyyətlərdən söhbət belə, gedə bilməz. Muxtar respublikamızda əldə olunan böyük uğurların əsaslı səbəblərindən biri də burada nizam-intizamın olmasıdır.

Həmin məqalənin işıq üzü gördüyü illərdə Naxçıvan şəhərində "komission mağazalarının və köşklərin yan-yana düzülməsindən" şikayət edən müəllif haqlı olaraq sual edir: "Əgər şəhərdaxili yollarda, küçələrdə hərə dəmir bir köşk qoyub alver edirsə, ətrafa yığın-yığın meyvə qabığı, kağız-kuğuz, xarab olmuş tərəvəz kolları, kartof, kələm qalıqları atılırsa, onda hansı təmizlikdən danışmalıyıq?" Həmin dövr üçün ən aktual məsələlərdən biri də bu idi. Xatırlayanlar yaxşı bilirlər: həmin illərdə Naxçıvan şəhəri elə bir dəhşətli vəziyyətə düşmüşdü ki, buranın abadlaşacağını və dünyanın ən təmiz şəhərlərindən birinə çevriləcəyini təsəvvür belə, etmək mümkün deyildi. Hər addımda əcaib formada olan dəmir köşklər bir tərəfə, onların ətrafında, sözün həqiqi mənasında, yaradılmış zibilxanalar insanlarda ikrah hissi yaradırdı. Sanki 5 minillik şəhər mədəniyyətinin daşıyıcıları olan insanlar hansısa "sehrli" bir qüvvənin təsiri ilə şəhərin dağıdılmasına, xarabazara çevrilməsinə göz yumur, buna əhəmiyyət vermirdilər. "Bu qüvvə" isə müəllifin qeyd etdiyi kimi, "son illərin ağrılı-acılı hadisələri" ilə yanaşı, blokadanın yaratdığı çətinliklər, əhalinin rifah səviyyəsinin kəskin şəkildə aşağı düşməsi idi. Bu hallar mənəviyyatımıza, şəhər mədəniyyətimizə də təsirsiz ötüşmürdü.

İnkişaf edən, iqtisadi cəhətdən güclənən Naxçıvanda bu gün əhalinin sosial rifah səviyyəsi həmin dövrlə müqayisə olunmayacaq dərəcədə yüksəlib. Bu gün şəhərdə hər tərəfdə, necə deyərlər, "alaq otu kimi cücərən" köşklər də yoxdur. Onların yerində gözoxşayan binalar ucalıb, gözəl yollar salınıb, müasir obyektlər inşa olunub. Şəhərdə fəaliyyət göstərən ticarət mərkəzləri isə həm görkəmi, həm də təmizliyi ilə diqqəti cəlb edir. Əlaqədar qurumlarla yanaşı, muxtar respublika sakinləri də təmizliyə xüsusi diqqət yetirirlər. Bu gün küçədə gedən hər hansı bir şəxs əlindəkini təmizlik qabına deyil, yerə atarsa, dərhal ictimai qınaqla qarşılaşır. Çünki Naxçıvan sakinləri şəhərlərimizin, kəndlərimizin bizim evimiz olduğu düşüncəsini artıq mənimsəyiblər. İnsan öz evinə necə münasibət göstərirsə, sakinlər də şəhərlərimizin, kəndlərimizin təmizliyinə bu cür münasibət göstərirlər.

Qədim şəhərin qonaqlarının, xarici nümayəndələrin diqqətini çəkən məsələlərdən biri də paytaxt Naxçıvan şəhərinin gözəlliyi ilə yanaşı, həm də təmizliyi, abadlığıdır. Hər biri etiraf edir ki, bu gün Naxçıvan hətta onların ölkələrindəki şəhərlərdən də qat-qat təmizdir. Əlbəttə, bu, hər birimizdə fəxarət hissləri yaratmaqla bərabər, daxilimizdə bu işləri görənlərə, Naxçıvanı düşdüyü o çox çətin, ağır, dəhşətli vəziyyətdən bu səviyyəyə yüksəldənlərə sonsuz minnətdarlıq hissləri yaradır. Həmin insanlar bu möhtəşəm işləri ilə tarixə adlarını qızıl hərflərlə yazıblar.

*2018-ci ildə daha bir qürurlu hadisənin şahidi olacağıq. Həmin il Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı statusunu təhvil alacaqdır. Müxtəlif tarixi mərhələlərdə yaranmış, dövrün ictimai-siyasi şəraitinin nəticəsində formalaşmış və Naxsuana, Aksuana, Nəşava, Nəqçuan, Naxçirvan, Naxcivan, Nəqşi-cahan kimi adlarla tarixə yer alan, sivilizasiyanın beşiyi olan Naxçıvan şəhəri bu dəfə İslam mədəniyyətinin paytaxtı kimi dünyada şan-şöhrət qazanacaqdır. Naxçıvan bu ada layiqdir. Çünki bu şəhər keçmişdə də, bu gün də mədəniyyətin beşiyi kimi tanınır. 25 ildir, blokadada yaşayan Naxçıvan həmrəyliyin, birliyin nümunəsini göstərən yurd yeridir. Biz həmişə "tək əldən səs çıxmaz", – deyərək təkcə muxtar respublikamızı, ölkəmizi deyil, bütün dünyanı birliyə, həmrəyliyə dəvət edirik. Arzumuz budur ki, bütün dünya Naxçıvan şəhəri kimi təmiz, abad və təhlükəsiz olsun.*

**✍ Rauf ƏLİYEV**

***Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

## Smartfon və planşetlərdən istifadə edən muxtar respublika sakinləri *"Pensiya kalkulyatoru"* vasitəsilə öz pensiyalarını asanlıqla hesablaya bilərlər

***"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet saytının (www.dsmf.nakhchivan.az) yaradılması məcburi dövlət sosial sığortahaqqı ödəyicilərinin məcburi dövlət sosial sığorta haqlarının plastik bankomat kartları vasitəsilə və ya banklarda nağd qaydada onlayn ödənilməsinə, vətəndaşların fonda elektron müraciət etmələrinə və digər elektron xidmətlərin fəaliyyət göstərməsinə geniş imkanlar açıb.***

Fonddan aldığımız məlumata görə, fondda və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş şəraiti təşkil olunub, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılıb, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılıb və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılıb.

Bunun da nəticəsində vətəndaşlara, əmək pensiyaçılarına, sığortaedənlərə və sığortaolunanlara göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşdırılıb. Nəticədə, məcburi dövlət sosial sığortası sahəsində şərti yığımı təmin edəcək sığortaolunanların fərdi hesabları üzrə ödənilmiş sığorta haqları barədə məlumat bazasının yaradılması, bütün mövcud proseslərin, yəni həm məcburi dövlət sosial sığorta haqlarının toplanması və fərdi uçotunun qurulması, həm pensiyaların məbləğinin hesablanması, həm də onların ödənişi və ödənişinə nəzarətin avtomatlaşdırılması tam təmin olunub.

Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalına *(www.e-hokumet.nmr.az)* və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə *(www.dsmf.nakhchivan.az)* 21 adda elektron xidmət inteqrə edilib ki, hal-hazırda bunların 16-dan istifadə olunur. Bu elektron xidmətlərdən ən maraqlısı isə "Pensiya kalkulyatoru" elektron xidmətidir.

Artıq android əməliyyat sistemi olan smartfon və planşetlərdən istifadə edən istənilən şəxs "google play" mağazasına daxil olmaqla, pulsuz olaraq "Pensiya kalkulyatoru" proqramını asanlıqla yükləyə və gələcəkdə əldə edəcəyi pensiyanın məbləğini hesablaya bilər. Tələb olunan məlumatlar doldurulduqdan sonra mobil proqramda göstərilən kalkulyator işarəsinə toxunmaqla açılan pəncərədə pensiya kapitalı, pensiyanın baza və sığorta hissəsi, aşağıda isə pensiyanın məbləğini öyrənmək mümkündür.

Məlumatda o da bildirilir ki, fond tərəfindən avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidlə bağlı xüsusi proqram təminatı vasitəsilə 2006-2016-cı illər üzrə sığortaolunanlar haqqında məlumatlar, həmçinin sığortaolunanların 2006-cı il 1 yanvar tarixinədək bütün əmək fəaliyyəti dövrləri onlar üçün fondda açılmış fərdi şəxsi hesablara işlənilib.

"Əmək pensiyalarının baza hissəsinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 yanvar tarixli Sərəncamına əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılaraq 110 manat müəyyən edilib. Həmçinin Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 yanvar tarixli Sərəncamına əsasən, əmək pensiyasının sığorta hissəsinin məbləği 2015-ci il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2016-cı ilin 1 yanvar tarixinə 4 faiz artırılıb.

**Xəbərlər şöbəsi**

## Peşə təhsilinə göstərilən qayğı insan kapitalına qoyulan investisiyadır



***Hazırda bütün dünya ölkələrində rəqabətqabiliyyətli məhsul istehsalı və davamlı iqtisadi artımın təmin olunması əsas məsələlərdən biridir. Bu məsələnin həlli isə yalnız insan resursları hesabına həyata keçirilir. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, dünya ölkələrində son illərdə iqtisadi artımın 60 faizdən çoxu insan kapitalı hesabına baş verir. Qərb ölkələrində aparılan tədqiqatlara görə, inkişaf etmiş ölkələrdə insan kapitalına qoyulan investisiyaların gəlirlilik səviyyəsi digər amillərdən gələn qazancı iki dəfədən artıq üstələyir. Bu fakt cəmiyyətin inkişafında insan kapitalının hansı rola malik olduğunu aydın göstərir. Odur ki, insan kapitalının inkişafı, onun potensialının yüksəldilməsi hər bir dövlətin başlıca vəzifələrindən biridir.***

İnsan kapitalının inkişafına səbəb olan amillərin içərisində isə ən əsas yeri insanların təhsilinə, o cümlədən peşə təhsilinə yönəldilən investisiyaların səmərəliliyi təşkil edir. Çünki əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli kadrların hazırlanmasında peşə təhsilinin də mühüm rolu var. Qeyd edək ki, ölkəmizdə peşə təhsilinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xüsusilə ulu öndərin respublikamıza rəhbərlik etdiyi ilk dövrlərdə texniki-peşə təhsili sistemi sürətlə inkişaf etməyə başlayıb. Həmin dövrdə elmi-texniki tərəqqinin uğurlu nəticəsi olan fabrik və zavodların fəaliyyəti müxtəlif peşə ixtisaslarına malik böyük potensiala ehtiyac yaradırdı. Məhz buna görə də görkəmli dövlət xadimi peşə təhsilinin inkişafını çox əhəmiyyətli hesab edərək, hələ o dövrdə hər hansı bir iri müəssisənin istifadəyə verilməsindən əvvəl həmin müəssisə üçün ixtisaslı işçi qüvvəsi hazırlaya bilən texniki-peşə məktəbinin yaradılmasına önəm verirdi. Təsadüfi deyil ki, o zaman Azərbaycanda kondisioner, şin, büllur və çini qablar, xalça və digər məhsullar istehsal edən böyük müəssisələrin yaranması ilə paralel olaraq onlar üçün peşə-ixtisas kadrları hazırlayan texniki-peşə məktəbləri kompleksləri də tikilib istifadəyə verilmişdi. Bundan əlavə, 1969-cu ildən başlayaraq respublikada fəaliyyət göstərən texniki-peşə məktəblərində peşə təhsili ilə yanaşı, orta təhsil almaq imkanı da yaradılmışdı.

Müstəqilliyimizin ilk illərində təhsilin başqa sahələrində olduğu kimi, peşə təhsilində də ciddi problemlər yaranmışdı. O dövrdə texniki-peşə təhsili müəssisələri baxımsızlıq ucbatından bərbad vəziyyətdə idi. Ulu öndərin hakimiyyətə yenidən qayıdışı başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də yeni dövrün başlanğıcını qoydu. 1999-cu ildə təsdiq olunmuş “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” texniki-peşə təhsili sahəsində də əsaslı dönüşün yaradılması üçün yeni imkanlar açdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)” isə peşə təhsili islahatının gedişini daha da sürətləndirdi, yeni peşələr üzrə kadr hazırlığına diqqət artırıldı.

Müstəqilliyin ilk illərində peşə təhsilinə maraq, demək olar ki, azalmışdı. Lakin ölkəmizin sürətli inkişafı, yeni iş yerlərinin açılması, zavod və fabriklərin işə salınması bu sahəyə olan marağı tədricən artırdı. Texniki-peşə təhsilinin inkişafı üçün qəbul edilmiş dövlət proqramı ilə yanaşı, ölkənin inkişafına xidmət edən digər proqramların icrası da bu sahənin inkişafına təkan verdi. Bütün çətinliklərə baxmayaraq, texniki-peşə təhsilinin inkişafı sahəsində yeni mütərəqqi meyillər yaranmağa başladı.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında da bu sahədə mühüm addımlar atılıb. Regionun gələcək inkişafının etibarlı zəmanəti kimi muxtar respublikada peşə təhsili şəbəkəsinin genişləndirilməsinə nail olunub. Belə ki, hazırda muxtar respublikada Naxçıvan, Şərur və Ordubad Texniki-Peşə və Sürücülük məktəbləri, Naxçıvan Şəhər Peşə Liseyi, Regional Peşə Tədris Mərkəzi kimi peşə təhsili verən müəssisələr fəaliyyət göstərir. Bu peşə təhsili müəssisələri muxtar respublikada aparılan quruculuq tədbirlərindən öz payını alaraq müasir tələblərə cavab verən yeni binalarda fəaliyyət göstərirlər. Belə məktəblərdə gənclərin təhsil alması, müxtəlif peşələrə yiyələnməsi üçün hərtərəfli şərait yaradılıb. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi peşə təhsili müəssisələrində tədrisin yüksək keyfiyyətlə, eyni zamanda müasir dövrün tələblərinə uyğun olaraq keçirilməsində böyük rol oynayır. Bundan əlavə, muxtar respublikada sahibkarlığa göstərilən dövlət dəstəyi hesabına hər il yerli istehsal müəssisələrinin sayının artması və nəticədə, dayanıqlı iqtisadi inkişafın təmin olunması müxtəlif peşə təhsilli kadrlara olan ehtiyacı da artırır. Bunun nəticəsidir ki, son illərdə bu sahəyə olan maraq artır, nəticədə, məşğulluq məsələlərinin həlli yerli kadrların işlə təmin olunması hesabına təmin edilir. Təkcə 2015-2016-cı tədris ilində muxtar respublikada peşə təhsili müəssisələrini 604 məzun bitirib və onların böyük əksəriyyəti öz peşəsinə uyğun işlə təmin olunub. Məlumat üçün bildirək ki, cari ilin oktyabr ayında Naxçıvan Şəhər Peşə Liseyindən 37, Şərur Texniki-Peşə və Sürücülük Məktəbindən 18, Ordubad Texniki-Peşə və Sürücülük Məktəbindən 40 müdavim Qazanxana maşinisti peşəsi üzrə, Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbindən isə sürücülük kursu üzrə 92 müdavim təhsillərini başa vurublar. Hazırda Naxçıvan Şəhər Peşə Liseyində 79, Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində 427, Şərur Texniki-Peşə və Sürücülük Məktəbində müxtəlif peşələr üzrə 29, Ordubad Texniki-Peşə və Sürücülük Məktəbində isə müxtəlif ixtisaslar üzrə 158 müdavim təhsilini davam etdirir. Naxçıvan şəhərindəki Regional Peşə Tədris Mərkəzində isə 21 nəfər Dayə, 12 nəfər Bərbər (cəzaçəkmə müəssisəsində), iki bölmədə olmaqla, 48 nəfər Qazanxana maşinisti, 10 nəfər müdavim isə Qazanxana avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi üzrə təhsil alır. Rəqəmlərdən də göründüyü kimi, muxtar respublikada peşə təhsili verilən məktəblərdə ehtiyac duyulan sahələr üzrə əmək bazarının tələbatına uyğun olaraq müxtəlif peşələr üzrə kadrlar hazırlanır.

Peşə təhsili müəssisələrinin fəaliyyətinə böyük önəm verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***“Peşəkar kadrlar yalnız ali və orta ixtisas təhsili müəssisələrində hazırlanmır. Bu məsələdə peşə təhsilinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırıb. Bu səbəbdən son illər peşə təhsilinin məzmunu tamamilə yeniləşib, peşə tədrisi müəssisələrinin maddi-texniki bazası gücləndirilib. İqtisadiyyatın çoxşaxəli inkişafı, yeni peşə və sənət sahələrinin yaranması özü ilə bərabər, ixtisaslı kadrlara olan tələbatı da artırır. Artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilib”.***

Təcrübə göstərir ki, texniki-peşə təhsili bütövlükdə təhsil sisteminin mühüm bir sahəsi olmaqla, cəmiyyətin inkişafında fərdlərin iştirakını təmin edir, insanları yeni biliklərə yiyələnməyə istiqamətləndirir, peşəkar fəaliyyətdə davamlı inkişafa nail olmaqda real köməklik göstərir. Elə buna görədir ki, hazırda peşəkar kadr hazırlığının kəmiyyət və keyfiyyətcə bazar iqtisadiyyatına uyğunlaşdırılması, peşə hazırlığının müntəzəm təhsillə əlaqələndirilməsi, peşəyönümü fəaliyyətin gücləndirilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Ölkə başçısı cənab İlham Əliyev bu sahənin vacibliyinə diqqət çəkərək deyib: ***“İnkişaf etmiş ölkələrdə texniki-peşə məktəbini bitirən insanlar çox böyük imkanlara malik olur, çox yaxşı maaşla təmin olunurlar. Nəzərə alsaq ki, indi Azərbaycanda sənaye sahəsində maaşlar humanitar sahədə olan maaşları üstələyir və yəqin ki, gələcəkdə bu ənənə davam edəcək, bu sahəyə çox böyük diqqət göstərməliyik”.***

*Bəli, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda sosial-iqtisadi sahələrdə nailiyyətlər qazanmağın əsas yolu əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasıdır. Belə kadrların hazırlanması isə, ilk növbədə, təhsildən, o cümlədən peşə təhsilindən asılıdır. Məhz bu baxımdan peşə təhsilinə qoyulan investisiya insan kapitalına qoyulan investisiya kimi dəyərləndirilir.*

**Səbuhi HƏSƏNOV**

Son zamanlar iş yerlərində nəqliyyat vasitələri ilə yük daşınma işlərində (nəqliyyat vasitəsinin geri hərəkəti, yükləmə və boşaltma əməliyyatları nəticəsində) işçilərin təcrübəsizliyi, səhv və ehtiyatsızlığı

## İxtisasartırma kursuna başlanılıb



səbəbindən bədbəxt hadisələr baş verir. Bütün bunlar nəqliyyat vasitələrindən istifadə edərkən qəza hadisələrinin baş verməsinə səbəb ola biləcək amillərə və onların aradan qaldırılması məqsədilə həyata keçiriləcək təhlükəsizlik tədbirlərinə diqqəti artırıbdır.

Naxçıvan Muxtar Respublikasi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Yükləmə-boşaltma və yüklərin daşınması işləri zamanı əməyin mühafizəsi qaydalarına əməl olunması” mövzusunda ixtisasartırma kursuna başlanılıb.

Beş iş günü davam edəcək kursa Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Yüksək Gərginlikli Elektrik Şəbəkəsinin, “Cahan-İnşaat”, “Gəmiqaya Yol, Su, Enerji”, “Dizayn Nəqliyyat” Məhdud Məsuliyyətli cəmiyyətlərinin, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsinin, Naxçıvan Yol Təmir-Tikinti, Naxçıvan Şəhər Yaşıllaşdırma və Naxçıvan Şəhər Sanitar Təmizlik idarələrinin, Ordubad və Babək Rayon Kommunal Müəssisələri kombinatlarının əməyin mühafizəsi üzrə, ümumilikdə, 10 mütəxəssisi cəlb edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən “Yükləmə-boşaltma və yüklərin daşınması zamanı əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl edilməsi”, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Səhiyyə Nazirliyinin nümayəndələri tərəfindən müvafiq olaraq istehsalatda əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi qaydaları ilə bağlı mövzular tədris olunur.

Kurs iştirakçılarına maarifləndirici bukletlər təqdim olunub və yekunda onların bilikləri yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Futzal birinciliyinə start verilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi “Futzal kuboku” uğrunda muxtar respublika birinciliyinə start verilib.***



Olimpiya sistemi üzrə keçirilən və beynəlxalq futzal qaydalarına uyğun olaraq təşkil edilən birincilikdə 9 komanda mübarizə aparır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş yarış Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilir.

Üç gün davam edəcək birincilikdə Naxçıvan Dövlət Universitetinin (NDU) komandası, “DİN-Darıdağ”, “Sədərək”, “Şərur”, “Kəngərli”, “Şahbuz”, “Babək”, “Culfa” və “Ordubad” komandaları meydana çıxacaqlar. Reqlamentə əsasən, qalib komanda bir oyunun nəticəsinə görə müəyyənləşdiriləcək. Oyunlarda təyin olunan vaxt zamanı qalib müəyyən edilməzsə, o zaman qaydalara əsasən yeddi metrlik 5 zərbədən istifadə olunacaq.

Artıq birincilikdə bəzi oyunlara yekun vurulub. Belə ki, ilk görüşdə NDU-nun komandası Kəngərli futzalçılarını məğlub edib. “Şahbuz” komandası isə babəkli həmkarlarından üstün olub. “Şərur”-“Sədərək” matçında birincilər meydanı qələbə ilə tərk edərək növbəti mərhələyə yüksəliblər. “DİN-Darıdağ” isə “Culfa” komandasını məğlub edərək adını yarımfinala yazdırıb.

Yarımfinal mərhələsinə vəsiqə qazanmaq uğrunda digər görüşdə “Ordubad” komandası ilə NDU futzalçıları üz-üzə gəlib. Bu görüşdə qələbə qazanan ordubadlılar yarımfinala yüksəliblər.

Bu gün yarımfinal mərhələsində “Ordubad”-“DİN-Darıdağ”la, “Şərur” isə “Şahbuz”la qarşılaşacaq. Final görüşü isə sabah keçiriləcək.

## Yüngül atletika üzrə rayon birinciliyi keçirilib

Ordubad Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi yüngül atletika üzrə rayon birinciliyi başa çatıb.

Birincilikdə 19 məktəbdən 157 şagird mübarizə aparıb. Birinciliyin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Əbülfəz Əliyev və Təhsil Şöbəsinin əməkdaşı Nicat Babayev çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Sonra yarışa start verilib. Gərgin keçən mübarizə nəticəsində Sabirkənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Azadkənd tam orta məktəbinin komandası ikinci, Üstüpü kənd tam orta məktəbinin komandası isə üçüncü olublar.

Sonda şagirdlərə təşkilatçıların diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 891